# Milli Məclisin payız sessiyası başa çatdı





















Dünən Milli Məclisin payız sessiyasının son plenar iclası keçirildi. İclasın gündəliyinə 28 məsələ daxil edilmişdi. Müzakirəyə təqdim olunan sənədlər sırasında qanun layihələrinə dəyişikliklər və yeni qanun layihələri də var idi.

Milli Məclisin Sədri Oqtay Əsədovun cari məsələlər üçün ayırdığı vaxtda ilk çıxış edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Rövşən Rzayev bildirdi ki, konstitusion hüququndan istifadə edərək "ABŞ-da insan hüquqlarının vəziyyəti haqqında" qanun layihəsi hazırlayıb. Deputat qeyd etdi ki, layihəni ölkəmizə qarşı tətbiq olunan ikili standartlara, ədalətsizliyə görə hazırlayıb: "Helsinki komissiyasının üzvü tərəfindən "Azərbaycan Demokratiya aktı" qanun layihəsinin ABŞ konqresinə verilməsinin kökündə erməni lobbisi dayanır. Onlar iddia edirlər ki, Azərbaycanda insan hüquqları pozulur və ermənilər Azərbaycanda yaşaya bilməzlər. Bu ermənilərin Dağlıq Qarabağa müstəqillik almaları üçün bəhanələridir. Sual oluna bilər ki, layihənin müəllifini insan hüquqlarının pozulması narahat edirsə, niyə Xocalı faciəsinə, ermənilər tərəfindən aparılan etnik təmizləmə siyasətinə qarşı reaksiya verməyib? ABŞ-ın özündə insan hüquqları ilə bağlı problemlər mövcuddur və bu qanun layihəsində əksini tapıb".

R.Rzayev Milli Məclisin Sədri Oqtay Əsədovdan qanun layihəsinin komitələrdə müzakirə edilməsi üçün icazə istədi. Oqtay Əsədov qanun layihəsinin müvafiq komitələrdə müzakirə olunmasının vacibliyini vurğuladı. Milli Məclisin Sədri layihəni parlamentin Aparat rəhbəri Səfa Mirzəyevə təqdim etməyi tövsiyə etdi. Eyni zamanda, layihənin Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində müzakirə edilməsi barədə tapşırıq verdi.

Deputat Vahid Əhmədov isə qeyd etdi ki, dünya bazarında neftin qiymətinin kəskin şəkildə ucuzlaşması Azərbaycanda manatın devalvasiyasına vadar etdi. Onun sözlərinə görə, artıq Azərbaycanın idxalına ciddi nəzarət olmalıdır: "Azərbaycan müstəqillik dövründə belə hadisələri çox görüb və uğurla çıxıb". Deputat əhalini təmkinli olmağa çağırdı.

Milli Məclisin Sədri Oqtay Əsədov isə diqqətə çatdırdı ki, Azərbaycan hökuməti son dövrdə yaranmış çətin iqtisadi vəziyyətdən çıxmaqla bağlı tədbirlər planı hazırlayır və yaxın vaxtlarda bu açıqlanacaq. O.Əsədov bildirdi ki, Azərbaycan xalqı bu tədbirlərin nəticəsini çox yaxşı hiss edəcək.

Deputat Xanhüseyn Kazımlı və Qüdrət Həsənquliyev həmkarları Rövşən Rzayevin hazırladığı qanun layihəsinin müzakirəyə çıxarılmasının vacibliyini bildirdilər.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə dedi ki, Azərbaycan neft gəlirlərindən ən düzgün istifadə edən ölkədir. Azərbaycan heç vaxt israfçılığa yol verməyib. Məktəblər, bağçalar, xəstəxanalar tikilib, infrastruktur yaradılıb, iş yerləri açılıb. Həmçinin qeyri-neft sektoru inkişaf edib. Azərbaycan neft strategiyasını uğurla həyata keçirib. Onun fikrincə, Mərkəzi Bank hər dəfə manatın məzənnəsinin sabit saxlanılması üçün 2 milyard vəsait xərclədiyini elan edib: "Bunu etməkdənsə, həmin vəsaiti vətəndaşların problemlərinin həll edilməsinə xərcləsə, daha məqsədəuyğun olardı. Yəni, bütün problemləri Mərkəzi Bank həll etməlidir. Çünki banklar öz potensialından kifayət qədər istifadə edə və əldə etdikləri gəlirləri ortaya qoyub bu problemi həll edə bilərlər".

Rövşən Rzayevin Milli Məclisə təqdim etdiyi qanun layihəsinin tərəfdarı olduğunu bildirən Siyavuş Novruzov vurğuladı ki, hər gün bir nəfər erməni lobbisinin təhriki ilə Azərbaycana qarşı məsələ qaldıracaqsa, Azərbaycan da Milli Məclisdə belə qanun layihələrini müzakirə etməlidir. Onun sözlərinə görə, erməni lobbisi belə addımlar atmağa çalışsa da, ABŞ Azərbaycanın strateji müttəfiqidir: "Azərbaycan ABŞ-la əməkdaşlığı davam etdirir. Konqresə Azərbaycan haqda təqdim olunan qərəzli layihə sırf ermənipərəst konqresmenin mövqeyidir. Buna reaksiyamızı bildirməliyik. Amma mətbuatda bir çoxları kəskin şəkildə ABŞ-a, ümumilikdə konqresə qarşı mübarizəyə başlayıblar. Bizim qarşılıqlı əməkdaşlığımız var. Orada dostluq qrupu fəaliyyət göstərir. Biz bunları işə salmalıyıq".

Çıxışlardan sonra gündəlikdəki məsələnin müzakirəsi başlandı. İlk olaraq Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavininin və auditorlarının təyin edilməsi haqqında sənəd müzakirəyə çıxarıldı. Bununla bağlı İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Bildirdi ki, Adil Məhərrəmovun sədr müavini, Cəfər Həsənovun, Firsənd Qurbanovun və Vaqif Həsənovun yenidən Hesablama Palatasının auditoru vəzifəsinə təyin olunması ilə bağlı təklif irəli sürülüb. Sənəd səsə qoyularaq qəbul edildi.

Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də, "Fövqəladə hallar orqanlarında xidmət keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə qanun layihələri ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədi Əli Hüseynli məlumat verdi. Bildirdi ki, hər 3 sənədə eyni dəyişikliklər təklif edilir. Bu, "Dövlət qulluğu haqqında" qanunda edilən dəyişikliklərə uyğunlaşdırmaq məqsədi daşıyır. Təklif olunan 17.9-cu maddədə göstərilir ki, attestasiya olunan daxili işlər, fövqəladə hallar və gömrük orqanları əməkdaşlarına onların xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onların siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə qanun layihələrinə də analoji dəyişikliklər nəzərdə tutulur. Sənədlər səsə qoyularaq qəbul edildi.

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi haqqında parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat verdi. Bildirdi ki, dəyişikliyə əsasən, sənədin 14.3-cü maddəsində "attestasiyanın keçirilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilir" sözləri "attestasiya Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş qaydada və müddətdə həyata keçirilir" sözləri ilə əvəz edilir. Müzakirələrdən sonra sənəd səsə qoyularaq qəbul edildi.

İclasda, həmçinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də təsdiqləndi.

"Dövlət rüsumu haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də və "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihələrinə edilən texniki dəyişikliklər təsdiqləndi.

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında parlamentin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov məlumat verərək bildirdi ki, layihə "Televiziya və radio yayımı haqqında" qanunda dəyişikliklər edilməsini nəzərdə tutur. Qanunun 19-cu maddəsinə edilən dəyişiklik televiziya və radio yayımçılarının fəaliyyətinin dayandırılması və ya onların fəaliyyətinə xitam verilməsinin təsisçinin və məhkəmənin qərarı ilə yanaşı, "Televiziya və radio yayımı haqqında" qanunda nəzərdə tutulan hallarda teleradio yayımı sahəsində müvafiq dövlət orqanının qərarı ilə də həyata keçirilməsini nəzərdə tutur.

Müzakirələrdə çıxış edən Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov isə qeyd etdi ki, "Televiziya və radio yayımı haqqında" qanun MTRŞ-nin hər hansı televiziya kanalını bağlamasına icazə verir. Müzakirələrdən sonra layihə səsverməyə qoyularaq qəbul edilib.

Sonra deputatlar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə müsbət rəy bildirdilər.

İclasda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsi də müzakirə edildi. Layihə barədə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Vüsal Hüseynov məlumat verdi. Bildirdi ki, yeni İnzibati Xətalar Məcəlləsi 40 fəsil, 608 maddədən (əvvəlki 35 fəsil, 458 maddə idi) ibarətdir. Yeni məcəllədə bütün maddələr üzrə müvafiq məsələlər ümumiləşdirilib və konkretləşdirilib. Layihə səsverməyə qoyularaq birinci oxunuşda qəbul olundu. Layihə təsdiqlənərsə, 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi isə həm 2-ci, həm də 3-cü oxunuşda, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi isə 1-ci oxunuşda qəbul edildi.

Sonra Milli Məclisin Sədr müavini Bahar Muradova parlamentin 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə qəbul etdiyi müraciəti təqdim etdi. (Müraciət qəzetimizin bugünkü sayında dərc olunur).

Bununla da V çağırış Milli Məclisin payız sessiyası başa çatdı.

*Rəşad BAXŞƏLİYEV,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*